Şuşa–Xankəndi yolundan reportaj

# Ekoloji terror bəşəri cinayətdir



**Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Şuşa-Xankəndi yolunda fasiləsiz etirazlar edən QHT nümayəndələri, ekofəallar və könüllülərin aksiyalarının 4-cü günüdür ki, davam edir.**

Soyuq havaya baxmayaraq, iştirakçıların sıraları seyrəlmir, əksinə, artır. Aksiya iştirakçılarının mədənlərin qanunsuz istismarı, ekoloji terror, Ruben Vardanyanın pozucu, təxribatçı, talançı fəaliyyəti, Ermənistan ordusunun qalıqlarının Azərbaycan ərazilərindən çıxarılması ilə bağlı şüarları dayanmaq bilmir. Sülhməramlı kontingentin rəhbəri, general-mayor Aleksey Volkovdan isə hələ də səs-soraq yoxdur.

Aksiyaçılar öz çıxışlarında Laçın yolu vasitəsilə dinc erməni əhalisinə məxsus mülki və təcili yardım maşınlarının keçidinə şərait yaratmağa hazır olduqlarını hər dəfə qeyd edirlər.

**Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov qəzetimizə bildirir:**

– Erməni mətbuatı, teleqram kanalları həmişəki saxta ritorikalarına uyğun olaraq yazırlar ki, guya, biz mülki insanların, təcili yardım maşınlarının keçməsinə yol vermirik. Əlbəttə, bu tamamilə yalan informasiyadır. Onlar bununla bizi bu aksiyaya müxtəlif don geyindirməklə gözdən salmaq niyyətindədirlər. Lakin biz aksiyamızı davam etdiririk. Ətrafımızda hər gün müxtəlif yaşda və bir çox təşkilatları təmsil edən insanlar toplaşır, dəstək verirlər.

General Volkovdan tələb edirik ki, ekoloqlarımıza "Qızılbulaq" və "Dəmirli" yataqlarının monitorinqi üçün şərait yaratsın, bu yataqların qanunsuz istismarının ətraf mühit üçün nəticələrini öyrənsin. Təəssüf ki, bir neçə gün öncə azərbaycanlı mütəxəssislər Rusiya sülhməramlılarının müşayiəti ilə bu ərazilərə gələndə onların qarşısını separatçılar aldılar. Sülhməramlılarsa buna mane olmadılar. Ona görə də biz bura gəlməyi qərara aldıq. Artıq 4 gündür ki, burdayıq. "Ekoloji terrora son qoyun", "Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarına son qoyun" kimi tələb və şüarlarımızı səsləndirməkdə davam edirik. Hələ bir neçə gün əvvəl Volkovun siyasi məsələlər üzrə müavini polkovnik Kovalçuk yaxın saatlarda generalın bura gələcəyini söyləmişdi. Hələ də bir xəbər yoxdur. Görünür, zabit sözü onun üçün də əhəmiyyətli deyil.

A.Məmmədov əlavə edir ki, təbiət ümumbəşəri dəyərdir, onu qorumaq hər bir insanın borcudur. Ekoloji cinayətlər ümumbəşəri cinayətlərdən sayılır. Üstəlik, sən başqasına məxsus olan torpaqlarda bunu edirsən. Biz bunun qarşısını almağa çalışır və təbii sərvətlərimizin qanunsuz istismarının qarşısının dərhal alınması üçün haqq səsimizi ucaldırıq.




**"Gənclərin Töhfəsi" İctimai Birliyinin baş katibi Taleh Mansurov etiraz aksiyasının fəallarından biridir. O deyir ki, havanın soyuqluğu, dağlıq relyef bizi narahat etmir:**

– "Haqlı olduğumuz üçün çox rahatıq və tələblərimizin yerinə yetirilməsində israrlıyıq. Rus sülhməramlılarının komandanı, general-mayor Andrey Volkovu gözləyirik. Gəlsin, suallarımıza cavab versin. Qida təminatı, çay, su narahatlığımız yoxdur. Telefonlarımızın batareyaları tükənəndə çətinlik çəkirik. Çünki çöl şəraitidir. Yaxşı olar ki, internetə rahat bağlanmamız və aksiyaları yayımlamağımız üçün elektrik-kabel təminatı və internet sürəti gücləndirilsin. Qalan hər şey qaydasındadır. Bizim tələblərimiz nə vaxt yerinə yetirilsə, o zaman aksiya dayandırılacaq.

Bir qədər sonra Bakıdan gələn növbəti avtobusları görürük. Yeni gənclər, ictimai fəallar əllərində üçrəngli bayraqlarımızla aksiya keçirilən məkana gəlirlər. Etirazçıların sayı artmağa başladıqca, növbə çəkən sülhməramlı hərbçilərin çıxarılması da gözümüzdən yayınmır.

Qeyd edək ki, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

Xatırladaq ki, 2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

***Anar TURAN,***
***"Xalq qəzeti"***

**Şuşa**